https://doi.org/10.59849/2310-5399.2025.1.9

**UOT 782/785**

**Sevil Fərhadova**
***sənətşünaslıq doktoru, professor***
***AMEA Memarlıq və İncəsənət İnstitutu***
***(Azərbaycan)***

***sevil.farhadova@gmail.com***

# MUĞAM TƏFƏKKÜR PRİNSİPİ SUVEREN AZƏRBAYCANIN DAVAMLI İNKİŞAF KONSEPSİYASININ ƏSASI KİMİ

*"Həyatın elə bir anı gəlir ki, biz məhz muğamı boya-başa çatdırdıqlarımızlara ən qiymətli miras kimi ötürürük – qəlbimizin, ruhumuzun ən əziz, ən zərif zərrəsi kimi. Çünki məhz,muğam bizim nəsillərin kökə bağlılığını milli ləyaqət hissini qoruyur, onlarda qürur,emosional zənginlik,mərhəmət və acıma,mənəvi kamillik kimi vacib keyfiyyətlərin yaradıcısına dönür"*

**Mehriban Əliyeva**
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,***
***İSESKO-nun xoşməramlı səfiri***

**Xülasə.** Mövcud olan baxışlardan və mövqelərdən bir qədər kənarlaşaraq, bu məqalədə muğam irsi dünya qanunlarını rasional dərketməyə alternativ olan idrak üsulu kimi işıqlandırılır. Muğam fenomeni probleminin tədqiqində elmi axtarışın predmeti və obyekti kimi ətraf dünyamızın dərkində batini intuitiv duyumla zahiri fiziki qavrayışın arasında tarazlıq yaratmaqla Dünya Yaradıcılıq İdeyasının dərkinin əbədi axtarışında olan insan şüuru çıxış edir. Başlanğıc mövqe olaraq muğam probleminin multidistsiplinar yanaşma ilə öyrənilməsinin vacibliyi və perspektivliyi əsaslandırılır.

**Açar sözlər:** muğam təfəkkürü, bünövrə, konseptuallıq, etnik irs, universal Qanun.

**Giriş.** Azərbaycan müstəqillik əldə etdikdən sonra, artıq neçə illərdi ki muğam irsi milli mədəni dəyərlər sırasında prioritet mövqe tutur. Məhz bu illər ərzində muğam irsinin bərpası, qorunması və inkişafı üzrə müxtəlif sahələrdən olan mütəxəsislərin apardıqları çalışmalar dövlətin rəsmi şəxsləri tərəfindən yüksək səviyyədə dəstəklənmişdir ki, bu da artıq öz bəhrəsini verməkdədir. Muğam üzrə kitab, jurnal və ensiklopediyalarin nəşri, Azərbaycanın muğam klassikasının nailiyyətlərinin disklər vasitəsilə tirajlanması – YUNESKO və İSESKO-nun sülhməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi "Heydər Əliyev Fondu"nun dəstəyi ilə "Muğam dünyası" layihəsi çərçivəsində görülmüş və bu gün də görülən işlərin tam siyahisi deyil. İki ildən bir keçirilən ifaçılıq festivalları, eyni zamanda muğam üzrə beynəlxalq simpoziumlar miqyasına görə nəhəng cografi məkanda əsrlər boyu davam edən muğam haqqında elmi fikrin inkişafına mühüm töfhələr vermiş və yenə də verməkdədir. Bütün bunlar isə, sözsüz ki, ümumi ruhi ovqatın yüksəlməsinə müsbət təsir göstərərək, ifaçıları və eyni zamanda tədqiqatçıları dünya mədəniyyətinin bu fenomenal hadisənin dərin mahiyyətinə varmağa sövq edir. Məhz milli özünüidensifikasiya və özünü təyin dövründə muğam irsinin xüsusi statusunun rəsmən təsdik edilməsi təbii ki, musiqi klassikamıza, incəsənət predmeti kimi maraq göstərməkdən daha dərin motivasiyaya malikdir. Muğam mədəniyyətinin intibahı vəhdətə, mənəvi başlanğıca, kökə qayidış kimi dəyəndirilir.

**Əsas materialının şərhi.** Kökə qayıdış başlanğica qayidış – dünyavi harmoniyanın təməl prinsipi muğam dəstgahının quruluşu və məzmununda tazahür tapmaqla, həmcinin müasir dünyünın munaqişəli, müəyyən aspektlərdə böhranlı vəziyyəti ilə əlaqədar olaraq aktuallaşmışdır. İndiki tarixi dövrdə siyasi və mədəni proseslərin qloballaşması ilə təcrid olunmuş halda inkişaf etmək ehtimalının sıfıra enməsi dünyanın bütöv mənzərəsinin, onun qarşılıqlı əlagə və qarşılıqlı təsirləri ilə birgə dərk edilməsi israrlı şəkildə diktə edir. Bu baxımdan istər milli, istərsə də dünya elmi ictimayyəti tərəfindən ənənəyə, xüsusən də muğam ənənəsinə ildən – ilə marağın artması, ilkin olaraq qlobal vəhdət qanuna və qeyri – konfliktli harmonik inkişaf – yenilənmə strategiyasına keçid olması, qanunauyğun və əlamətdar mahiyyət kəsb edir.

Muğam nə qədər milli ruhlu bir fenomen olsa da, onun mahiyyətində multikultural çalarlar da vardır. Xüsusilə əlavə etmək lazımdır ki, burada söhbət öz millətinin mədəniyyətinin hegemonluğunu qorumaq naminə digər mədəniyyətləri qəbul etməyən Qərb dövlətlərinin qətiyyətlə rədd etdikləri

multikulturalizmdən deyil, məhz Azərbaycana xas olan multikulturalizmdən gedir – öz mədəniyyətinin genişliyinə və sabit kökünə güvənərək başqa mədəniyyətlərə qucaq açmaq siyasəti. Muğam kimlərsə tərəfindən müəyyən bir etnik mədəniyyətin bir təzahürü kimi qəbul edilə bilər. Lakin nəzərə almaq lazımdır ki, əvvəla hər etnik musiqi Universal Harmoniyanın üzvi hissəsi ola bilmir və öz çərçəvəsində mövcudluğunu saxlayır, kənara çıxmır. Muğam – dəstqah isə idrak-nurlanma hadisəsi olaraq Bütövün hissədə təzahürüdür, yəni Universalın etnik mədəniyyətdə ifadəsidir və onun mahiyyətinə dərinləşməklə Bütövə keçmək və Qanunu dərk etmək mümkündür. Bu baxımdan, muğamı bir tərəfdən sırf Azərbaycan mədəniyyətinin təməli, digər tərəfdən isə, universallığın yəni idrak – nurlanmanın təzahür forması kimi nəzərdən keçirmək bir qanunauyqunluq kimi qəbul edilməlidir.

*“Musiqi şey deyil: o, orqanik prosesdir, onun bütövlüyü strukturla deyil, daxili və xarici gərginliklərlə, qarşılıqlı əlaqədə olan qüvvələrin dinamik tarazlığı ilə qorunur”.*

**Q.Orlov *“Musiqi ağacı”***

Bu və ya digər orqanizmin dərin tədqiqini ehtiva edən istənilən elmi axtarış öz başlanğıcını qayda olaraq həmişə onun genezisinin öyrənilməsindən götürmüşdür. Konkret, əsrlərlə yaşayan mədəniyyət hadisəsinin yaranması və formalaşmasını şərtləndirən zəminlər barədə elmi təsəvvür yaratmadan onun mahiyyətinin və xüsusisyyətlərinin dərin dərki və doğru şərhi mümkünsüzdür. Bu, xüsusi ilə həyatın özünün prinsipini əsaslandıran, mədəniyyətin təməl mənəvi fenomenləri üçün keçərlidir ki, muğam da məhz bu cür təməl hadisələrə aiddir

Mədəni ənənənə inkişafda olan istənilən orqanizm kimi onun optimal yaşamı və “reproduktivliyi”nə şərait yaradan məxsusi bioloji mühitə malikdir. Muğam ənənəsi üçün belə bir mühit Azərbaycan mədəniyyəti olmuş və olmaqdadır. Bunun şəksiz sübutu mədəniyyətin bütün tərəflərinin muğamın konseptual məzmunu ilə nəfəs alması ilə yanaşı, muğamın “reproduktivlik” qabiliyyətinin Azərbaycan biomədəni mühiti ilə aşkar əlaqəsi faktıdır. Maraqlıdır ki, təkcə Azərbaycan mədəniyyəti çərçivəsində muqam ənənəsinin “yetkinləşməsinin” bütün fazaları, bu prosesi müşayət edən transformasiyalar, şaxələnmələr və sair dəyişikliklərlə, aydın şəkildə izlənilə bilir. Belə təəssürat yaranır ki, mədəni vəhdət miqyasında tarixən Azərbaycan adlan-

dırılmış coğrafi fəzada doğulan muğam fikri qlobal ölçüdə mayenin muğam dəstgahındakı funksiyasına analoji olan bir funksiyanı yerinə yetirmişdir. Invariant kimi "maye" muğam dəstgahında təməl konseptual fikir statusunda yaradıcı enerji olaraq vahid ruhani mərkəzi təmsil edir, çoxlu ideyalara şaxələnərək dünyanı dəyişidirir, fərqli, müstəqil həyat yaşayan mənalara transformasiya olur ki, onlar da öz növbələrində ilk mənbədən maksimal dərəcədə aralandıqda mərkəzi fikir-ideyanın cazibə qüvvəsini xüsusi yanğı ilə hiss etməyə başlayırlar. Maraqlıdır ki, vahid ruhani təşşəkkülün məhz Azərbaycan mədəniyyətində muğam mətni ilə kodlaşdırılmış çarpaz ritmi (daxili-xarici) Şərq-Qərb mədəniyyətlərinin sintezi mərhələsində muğam-opera, muğam-simfoniya, muğam-kantata, muğam-balet, muğam-caz və s. kimi hadisələri həyata gətirir. Bu da öz növbəsində Azərbaycanın "mənəvi iqliminin" muğam ənənəsinin "reproduktivliyi" baxımından ən əlverişli şərtlərə malik olması barədə yuxarıda dediyimiz fikri təsdiqləyir.Azərbaycan mədəniyyətinin muğam ənənəsi ilə üzvi əlaqəsinin bir dəlili də böyük adlarla zəngin olan xanəndə – vokalist məktəbinin mövcudluğudur. Ən qədim dövrlərdən ruhani mətnin məhz vokalla səsləndirilməsini və nitq intonasiyasının muğam ifaçılığındakı müəyyənedici əhəmiyyətini nəzərə alaraq muğam ənənəsinin vokalçı – xanəndə nəsilləri ilə təmsil olunmasının (onların sadəcə adlarının sadalanması işdə ona xüsusi yerin ayrılmasını tələb edə bilər) yüksək səviyyəsi muğam ənənəsinin Azərbaycan torpağında əzəli köklərə malik olmasının daha bir şübhəsiz dəlilidir.

Deyilənlərin fonunda məhz muğam probleminin ölkə üçün taleyüklü keçid məqamlarında açar problemə çevrilməsi və özünə ciddi diqqət tələb etməsi qanunauyğun görünür. Qısa tarixi zaman kəsiyində Azərbaycan mədəniyyəti iki belə mərhələ yaşamışdır – biri XIX əsrdən XX əsrə keçiddə – Azərbaycanın sovetləşməsi dövründə, digəri – hazırkı mərhələdə – XX əsrdən XXI əsrə keçiddə – suveren Azərbaycan Respublikasının təşəkkülü dövründə. Əgər birinci halda mövcud tarixi vəziyyətlə əlaqədar muğam ənənəsinin inqilabın elan etdiyi yeni mədəni dəyərlərlə uzlaşdırılması vəzifəsi irəliyə çıxmışdısa, hal-hazırda muğam irsinə maksimal sayğı ilə xalqın köklərə, vahid mənəvi mənbəyə qayıdışı vəzifəsi həll edilir. Bu gün muğam ənənəsinin daxilində əsrlərlə toplanmış mənəvi qüdrət vasitəsi ilə müasir mədəni quruculuğa çoxəsrlik təcrübə ilə yeni dövrün meyllərini birləşdirən musiqi kökü verilmişdir. Cari dövrdə elmi ictimaiyyətin muğam fenomeninin öyrənilməsinə olan marağını gücləndirən bir amil də musiqişünaslıqda və bütövlükdə elmdə baş verən dəyişikliklərdir. Dünya elmi ictyimaiyyətinin

diqqəti yenidən universal xarakterli suallarda cəmlənmişdir. İndi, tarixin əvvəlində olduğu kimi, insanlıq dünya nizami, planetar miqyasda insanın yeri və funksiyasının müəyyənləşdirilməsi ilə bağlı qlobal məsələnin həlli üzərində gərgin düşünməkdədir. Qeyd olunmuşdur ki, uzaq keçmişdə olduğu kimi, bəşər fikrinin hazırkı inkişaf mərhələsində insan şüuru problemi xüsusi önəm kəsb etməyə başlayır. Alimlərin proqnozlarına görə, onun həlli zəruri olaraq mövcud dünyagörüşününün dəyişməsinə gətirib çıxaracaqdır. Şüurun rasional və irrasional qütblərinin idrak alətləri kimi istifadəsinə əsaslanan müasir dünya elminin inkişafı artıq bu gün öz bəhrələrini verməkdədir. Hazırda akustik verilənlərin və onların materiyanın özünütəşkilinə təsirinin öyrənilməsi (fizikada, kvant nəzəriyyəsində, biologiyada, neyrofiziologiyada və digər elm sahələrində ) alimlərin diqqət mərkəzində olan məsələlərdəndir. Elmin müxtəlif sahələrində aparılan araşdırmaların nəticələri əsas verir ki, H.Hessenin "Muncuq oyunu" romanında təsvir etdiyi kimi, magistrların akustik vasitələrlə təzahür dünyasının müxtəlif canlı orqanizmlərinin strukturlarının istehsalını gerçəkləşdiriləcəyi gün o qədər də uzaqda deyildir. Hər bir halda, artıq indiki mərhələdə ətraf dünyanın mənimsənilməsinin yeni tədqiqat səviyyəsinə çıxış musiqinin bir elm sahəsi kimi artan rolu ilə əlaqələndirilir.

**Nəticə.** Deyilənlərdən belə bir nəticə çıxır ki, muğam fenomeninin əhəmiyyəti təkcə bu irsin mənəvi dəyər kimi bərpası və qorunması və həmçinin onun energetik potensialının dövlət ideologiyasının strateji resursu keyfiyyətində istifadəsi ilə məhdudlanmır, muğam həm də Azərbaycan elmini qabaqcıl mövqelərə çıxara biləcək elmi bilik mənbəyi kimi də nəzərdən keçirilməlidir. Hər-hazırda riyaziyyatçı, fizik və s. "dəqiq elm" sahələrinin alimlərinin ümumi nəzəriyyənin dərkinə səyləri, təəssüf ki, son nəticəyə gətirib çıxarmamış və dünyanın tam mənzərəsinə yığılmamışdır. İstisna deyil ki məhz musiqi, ilk növbədə muğam, multiditsiplinar elmi tədqiqatların mərkəzi probleminə çevrilərək elmi axtarışlara korreksiya verə və öyrənilən qlobal problemin həllində körpü funksiyasını yerinə yetirən konseptual əsas kimi çıxış edə bilər.

## ƏDƏBİYYAT:


1. Налимов В.В. Разбрасываю мысли. В пути и на перепутье. – Москва, 2000
2. Musazadə R.M.Qədim muğamlar. – Bakı, 2013.
3. Fərhadova S.M. Azərbaycan muğam-dəstgahının tarixi kökləri. – Bakı, 2018.

4. Niyazi Mehdi. Çətin və dolaşıq durumların kulturolojisı. – Bakı, 2009.
5. Гейзенберг В. Физика и философия. – Москва, 1989.

**Sevil Farhadova** *(Azerbaijan)*

**THE PRINCIPLE OF MUGHAM THOUGHT AS THE BASIS OF THE CONCEPT OF SUSTAINABLE DEVELOPMENT OF SOVEREIGN AZERBAIJAN**

Distancing itself from generally accepted views and attitudes, in this report mugam is illuminated as an alternative to the rational, scientific way of understanding the world Law. The subject and object of studying the phenomenon of mugam is considered to be the human consciousness, which is in an eternal search for a global Idea, balancing between the internal intuitive and external physical perception of the surrounding world. From the position occupied, the importance and prospects of a multidisciplinary study of the problem of mugam, which keeps the secret of the world order in all its manifestations, are substantiated.

**Key words:** mugham thinking, foundation, conceptuality, ethnic heritage, universal Law.

**Севиль Фархадова** *(Азербайджан)*

**ПРИНЦИП МУГАМНОГО МЫШЛЕНИЯ КАК ОСНОВА КОНЦЕПЦИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ СУВЕРЕННОГО АЗЕРБАЙДЖАНА**

Дистанцируясь от общепринятых взглядов и установок, в настоящем сообщении мугам освещается как, альтернативный рассудочному, способ научного постижения мирового Закона. Предметом и объектом изучения феномена мугама рассматривается находящееся в вечном поиске глобальной Идеи сознание человека, балансирующее между внутренним интуитивным и внешним физическим восприятием окружающего мира. С занимаемой позиции обосновывается важность и перспективность полидисциплинарного исследования проблемы мугама, хранящего тайну миропорядка во всех его проявлениях.

**Ключевые слова:** мугамное мышление, фундамент, концептуальность, этническое наследие, универсальный Закон.